## "ƏSRİN MÜQAVİLƏSİ" - 25

# *Prezident İlham Əliyev:* Biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq

## ÜÇTƏRƏFLİ FORMATDA BAŞLANAN ƏMƏKDAŞLIĞIN COĞRAFİYASI İLLƏR KEÇDİKCƏ DAHA DA GENİŞLƏNƏRƏK CƏNUB QAZ DƏHLİZİNƏ YOL AÇDI

**Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində, iqtisadi qüdrətinin artmasında, beynəlxalq münasibətlər sistemində yeri və rolunun müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayan "Əsrin müqaviləsi"nin imzalanmasından 25 il ötür.**



Zaman baxımından qısa olan bu dövr ərzində ölkəmizin qazandığı uğurların miqyasına diqqət yetirdikdə böyük qürur hissi keçiririk. Müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin ""Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının yeni bir mərhələnin əsasını qoydu. Ulu Öndərin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisi əsasında, ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadəni təmin etmək məqsədilə işlənib hazırlanan neft strategiyası Azərbaycanın növbəti illərdə davamlı inkişafının



inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkan yaradacaq. İnanıram ki, XXI əsr Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaq" fikirləri bugünkü reallıqlarda öz təsdiqini tapıb. Bu gün dünya inkişafın Azərbaycan modelindən bəhs edir və onun öyrənilməsinin vacibliyini bildirir.

Azərbaycan hələ qədim dövrlərdən bütün dünyada odlar diyarı, neft ölkəsi kimi tanınıb, dünya neft tarixində ilklərə imza atıb. Neftin sənaye üsulu ilə çıxarılmasına, boru kəməri ilə nəqlinə, tankerlərlə daşınmasına məhz Azərbaycanda başlanmışdır. Bu da onu deməyə əsas verir ki, ölkəmiz malik olduğu təbii resurslardan daim səmərəli istifadə etməyə, iqtisadi və siyasi imkanlarını genişləndirməyə səy göstərib.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın inkişaf tarixində əsasına çevrildi. Bu fikir hər zaman önə çəkilir ki, dünyada neftlə zəngin çox ölkələr var. Amma o sərvətlər həmin ölkələrə heç də uğur gətirmir. Əhali arasında təbəqələşmə prosesi sürətlə gedir. Lakin Azərbaycanda neft strategiyasının dünya ölkələrinin təcrübəsinə əsasən işlənib hazırlanması bu kimi problemlərin ortaya çıxmamasını şərtləndirdi. Neft gəlirlərinin düzgün idarə olunması, ədalət prinsipinin yüksək səviyyədə qorunması əhalinin sosial müdafiəsinin təminatında əhəmiyyətli rol oynadı. Ulu öndər Heydər Əliyev bildirmişdir: "Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur." Ümummilli Liderin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondu dövlət siyasətinin prioritetlərini müəyyənləşdirərək, mühüm sosial-iqtisadi layihələrin həyata keçirilməsini təmin etməklə ölkənin hərtərəfli inkişafına yol açır.

"Əsrin müqaviləsi"nin əhəmiyyətindən bəhs edərkən ilk öncə Azərbaycana inamın artmasında oynadığı rol önə çəkilir. Ulu öndər Heydər Əliyev bildirirdi ki, heç bir ölkə qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi olmadan iqtisadiyyatını təkbaşına inkişaf etdirə bilməz. "Əsrin müqaviləsi"nin imzalanması ilə bu tezisin reallığa əsaslandığı bir daha öz təsdiqini tapdı. Azərbaycana inamın artması ölkəmizə investisiya axınının sürətlənməsində özünü qabarıq şəkildə büruzə verdi. Bu gün böyük fəxr və inam hissi ilə qeyd edirik ki, ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 260 milyard dollardan çoxdur. Sərmayələrin böyük həcmini xarici investisiyaların təşkil etməsi Azərbaycanın bu gününə və gələcəyinə inamı bir daha ortaya qoyur. "Açıq qapı" siyasəti həyata keçirən ulu öndər Heydər Əliyev bildirmişdir ki, Azərbaycanın qapıları ölkəmizə xoş niyyətlə ayaq basan bütün iş adamlarına açıqdır. Onlar qoyacaqları investisiyaların təhlükəsizliyinə tam əmin ola bilərlər. Bu günümüzün uğurları sırasında yer alan bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycan bu gün yalnız investisiya yatırılan deyil, eyni zamanda, investisiya yatıran ölkə kimi tanınır və nüfuz qazanır.

Təkcə son illərin enerji sektorunda əldə olunan uğurlara və onların yol açdığı regional və beynəlxalq əməkdaşlığa diqqət yetirmək kifayətdir. "Əsrin müqaviləsi" 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanmasına yol açdısa, 2018-ci ildə üçtərəfli əməkdaşlığın başlanğıcı kimi dəyərləndirilən Cənub Qaz Dəhlizinin rəsmi açılışı, onun əsas seqmentlərindən olan TANAP-ın istifadəyə verilməsi kimi mühüm hadisələr enerji tariximizə yazıldısa, artıq əməkdaşlığın regional çərçivədən çıxdığı göz önündədir. Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində "4 il bundan əvvəl bu ərazidə Cənub Qaz Dəhlizinin təməli qoyulub. O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki, bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır" fikirləri ilə ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının Azərbaycana qazandırdığı uğurlara baxış keçirən cənab İlham Əliyev bildirmişdir ki, düşünülmüş siyasət, xalq-iqtidar birliyi, şəffaflıq, bütün azadlıqların təmin edilməsi, düzgün iqtisadi siyasət və regional əməkdaşlıq uğurlu inkişafın əsas amilləridir.

Xəzər hövzəsinin zəngin enerji potensialına malik ölkəsi kimi tanınan və bölgənin lider dövləti statusunu qoruyan Azərbaycan dünya dövlətləri üçün strateji tərəfdaş kimi qazandığı etimadı yeni layihələrin reallaşmasında göstərdiyi qətiyyəti ilə doğruldur. Avropa Birliyinə daxil olan ölkələrin təbii qazla təminatı üçün nəzərdə tutulan neft-qaz boru kəmərlərinin siyasi, iqtisadi əhəmiyyəti, perspektivi ətrafında aparılan müzakirələrdə də Azərbaycan amilinə xüsusi önəm verilir. Enerji təhlükəsizliyinin təminatı üçün alternativ variantlar üzərində müzakirələr aparan mütəxəssislərin qeyd etdikləri kimi, bu sahədə baxışları üst-üstə düşən Azərbaycanla əməkdaşlıq təkcə region, qitə deyil, bütövlükdə dünya dövlətləri üçün əhəmiyyətlidir. Dövlətimizin başçısı İlham Əliyevin Avropa ölkələrinə səfəri çərçivəsində keçirdiyi görüşlərdə, həmçinin Azərbaycanla Avropa İttifaqı arasında imzalanan "Tərəfdaşlığın prioritetləri" adlı sənəddə ölkəmizin iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrin dünyanın enerji təhlükəsizliyinin təminatında oynadığı rol əsas diqqət göstərilən məsələ olmaqla yanaşı, bu sahədə əməkdaşlığın inkişafı üçün geniş imkanların mövcudluğu xüsusi qeyd olunmuşdur. Ölkə Prezidenti İlham Əliyev bildirir: "Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsi ilə Azərbaycanın strateji tərəfdaşlığı haqqında sənədlər vardır. Bu, əlbəttə, onu göstərir ki, Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan ölkədir."

Dövlətimizin başçısı bu fikri də xüsusi qeyd edir ki, bəziləri üçün əfsanə kimi görünən layihələri problemsiz, maneəsiz həyata keçirdik. 2006-cı ildə BTC neft, 2007-ci ildə BTƏ qaz kəməri istifadəyə verildi. Bu gün ölkəmizi və bölgəmizi bu layihələrsiz təsəvvür etmək mümkün deyil. Bu layihələr nəinki ölkəmizi gücləndirir, xalqımıza xeyir gətirir. Bir sözlə, Azərbaycan enerji sektorunda da liderlik keyfiyyətlərini çox açıq şəkildə ortaya qoyur. "Əgər biz təşəbbüs göstərib 2012-ci ildə Türkiyə ilə birlikdə TANAP layihəsinə imza atmasaydıq, bu gün Cənub Qaz Dəhlizi haqqında danışa bilərdimi? Bu gün Avropanın enerji təhlükəsizliyini kimsə bizsiz təmin edə bilərdimi? Bunları biz edirik. Nəyə görə? Çünki bu bizim xalqımıza lazımdır. Bu bizim dövlətimizi, ölkəmizi gücləndirir və bizim maraqlarımıza xidmət edir."

⇨ Davamı 4-cü səhifədə